PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.86-91
https://doi.org/10.30546/30015.2025.4.052

# TÜRKİYƏ-SSRİ MÜNASİBƏTLƏRİ (1923-1946)

**T.Ə. Ağayev, X.C. İsayeva**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: terlanagayev717@gmail.com

**Xülasə**. Osmanlı imperiyasının süqutundan sonra Türkiyə–Rusiya münasibətləri yeni mərhələyə qədəm qoydu. Sovet Rusiyası 1917-ci il inqilablarından sonra Türkiyə üçün təhlükə deyil, İstiqlal müharibəsində əsas dəstəkçi oldu. Lenin dövründə dostluq davam etdi, lakin Stalin hakimiyyətə gələndə münasibətlərdə durğunluq yarandı. 1924-cü ildə Sovetlər beynəlxalq səviyyədə tanındı, İngiltərə və digər Avropa dövlətləri ilə diplomatik əlaqələr qurdu, eləcə də Türkiyəyə hücum etməmək barədə müqavilə təklif etdi. Bu məqalədə qeyd olunan dövr xarakterizə olunacaq.

**Açar sözlər**: Türkiyə, Sovet İttifaqı, diplomatik münasibətlər, 1923-1946, beynəlxalq əlaqələr.

## Giriş

**1923-1939-cu illərdə Türkiyə-Rusiya münasibətləri**. Türkiyə–Rusiya münasibətləri, xüsusilə 1923–1939-cu illər arasında ümumilikdə dostluq mühitində davam etmiş, problemlər əsasən Boğazlar məsələsi ətrafında cəmlənmişdi. Lozanna konfransında Boğazlar problemi nə Türkiyənin, nə də Rusiyanın istədiyi kimi yekunlaşmamışdı. Rusiya I Dünya müharibəsinə qədər İstanbul üzərindəki niyyətlərini həyata keçirə bilmədiyi üçün Boğazlarda imtiyazlı mövqe qazanmaq, yəni rus gəmilərinin Aralıq dənizinə çıxışını təmin etmək istəyirdi. Eyni zamanda Rusiyanın planına əsasən xarici gəmilərin Qara dənizə daxil olmasına icazə verilməməli idi. İngiltərə isə Rusiyanın bu təşəbbüslərini dayandırmaq məqsədilə Boğazların bütün dövlətlər üçün bağlanmasını tələb edirdi.

1925-ci ildən etibarən Rusiya Qərbdən ehtiyat edən bir siyasət yürütməyə başladı və əsasən özünü müdafiə istiqamətində addımlar atdı. Bu dövrdə bir tərəfdən I Dünya müharibəsinin qalibləri ilə Almaniyanı bir-birinə yaxınlaşdırmağı hədəfləyən Lokarno sistemi, digər tərəfdən isə Mosul məsələsi Türkiyə ilə Rusiyanın münasibətlərini daha da yaxınlaşdırdı.

**Türkiyə–Sovet İttifaqı dostluq və qeyri-aqressiya müqaviləsi**. 17 dekabr 1925-ci ildə Parisdə Türkiyə ilə Sovet İttifaqı arasında Qeyri-Aqressiya və Neytrallıq Müqaviləsi imzalandı. Müqaviləyə əsasən tərəflərdən biri hücuma məruz qaldıqda digəri neytral qalmalı idi. Heç bir tərəf digərinə qarşı təcavüz etməyəcək, eləcə də üçüncü dövlətlərin bu tərəflərdən birinə yönəlmiş düşmənçilik fəaliyyətlərinə qoşulmayacaqdı. Sovet İttifaqı bu müqavilə vasitəsilə bir tərəfdən kommunist ideologiyasını yaymaq imkanı qazanacağını, digər tərəfdən isə İngiltərəyə xəbərdarlıq göndərəcəyini düşünürdü. Beləliklə, Sovet–İngiltərə

münasibətlərində yaranan gərginlik fonunda Rusiya bu müqavilə ilə Türkiyəni özünə qarşı yaradıla biləcək potensial koalisiyadan kənarda saxlamağı hədəfləyirdi.

**11 mart 1927 Türkiyə-Sovet Rusiya ticarət müqaviləsi.** 1927-ci ilə qədər Rusiya ilə İngiltərə arasındakı münasibətlər xeyli gərginləşmiş və Rusiya İngiltərə ilə bütün diplomatik əlaqələrini kəsmişdi. Bu səbəbdən Rusiya Türkiyə ilə olan münasibətlərinə daha çox önəm vermişdir. 28 fevral 1927-ci ildə Sovet səfiri Suriç və İsmet İnönü arasında keçirilən görüş Sovetlər üçün böyük əhəmiyyət kəsb edirdi. Bu görüşdə Suriç gərginləşmiş Sovet-İngiltərə münasibətləri nəticəsində bir müharibənin baş verə biləcəyini və bunun yalnız Sovet-İngiltərə münasibətləri ilə məhdudlaşmayaraq bəzi ölkələrin də iştirak edə biləcəyini bildirmişdir. Bu danışıqlardan sonra 1927-ci ilin mart ayında Ticarət Müqaviləsi imzalanmışdır ki, bu müqavilənin əsas məqsədi Türkiyənin İngilis təsiri altına düşməsinin qarşısını almaq idi.

**Silahsızlanma konfransı**. 1928-ci ildən sonra Türkiyə və Rusiya arasındakı münasibətlər daha çox beynəlxalq səviyyədə inkişaf etmişdir. Qərb dövlətləri qarşısında tək qalmaqdan qorxan Rusiya Türkiyə ilə yaxşı münasibətlər qurmaq istəyirdi. Bu məqsədlə Rusiya Cenevrədə keçirilən Silahsızlanma Konfransına Türkiyənin də qatılmasını təklif etmişdir.

**16 mart 1931 Türkiyə-Sovet Rusiya ikinci ticarət müqaviləsi**. 16 mart 1931-ci ildə Moskvada ikinci Sovet-Türk ticarət müqaviləsi imzalanmışdır. 1931-ci ilin noyabr ayında Türkiyə hökuməti (ticaret və ödəniş balansının dünya iqtisadi böhranından dolayı pozulmasından sonra) idxalata kvota rejimi tətbiq etmişdir. Bu rejim nəticəsində Sovet-Türk ticarəti, 1931-ci il müqaviləsi yenidən nəzərdən keçirilərək bu sistəmə uyğunlaşdırılmışdır. 17 aprel 1932-ci ildə əlavə protokol tərtib olunaraq, müqaviləyə bəzi dəyişikliklər əlavə edilmişdir. Əlavə protokollarla birlikdə ticarət müqaviləsinin müddəti iki dəfə daha uzadılmışdır.

Yenilənmiş müqavilə Sovet-türk xarici ticarətini “netto-balans” prinsipi üzərində qurmuşdur. Beləliklə, Sovetlərdən nə qədər məhsul idxal edilirsə, eyni miqdarda, lakin türk mənşəli məhsullar şəklində Sovet ölkələrinə ixrac ediləcəkdi.

1931-ci il ticarət müqaviləsi və əlavə protokollarla normal siyasi və ticari münasibətlərin uzadılması ilbəil Sovet-Türkiyə arasındakı iqtisadi əlaqələrin güclənməsinə səbəb olmuşdur. Dünya iqtisadi böhranından dolayı Türkiyənin ixrac etdiyi məhsulların istehlakçısı olub öz məhsullarını Türkiyə bazarlarına asanlıqla ixrac edə bilən İtaliya, Fransa və İngiltərə kimi ölkələrin Türkiyə ilə xarici ticarət payları azalarkən, Sovetlərin payı dəyişməmişdir. İki ölkə arasındakı xarici ticarət həcmi 1936-cı ildə 38 milyon rubl olmuşdur.

Beləliklə, iki ölkə arasındakı ticarət münasibətlərinin üçüncü mərhələsi başlamışdır. 1931-ci il müqaviləsi Sovet ticarət orqanlarının Türkiyə ərazisində fəaliyyət göstərməyə davam etməsini təsdiqləyən bir struktura malik idi. Müqavilə ilə Sovet mallarının Türkiyəyə gətirilməsinə heç bir məhdudiyyət qoyulmamışdır. 1927-ci il müqaviləsində olduğu kimi, 1931-ci il müqaviləsi də Sovet Ticarət Nümayəndəliyinin hər iki ölkə vətəndaşlarının əldə etdiyi imtiyazları qorumuş və digər gəmi trafiki (səyahət), tranzit və ticarət problemlərinə həll yolları təqdim etmişdir.

**1939-1945 dövrü Türk-Rus münasibətləri.** 1939-cu ildən sonra türk-rus münasibətlərində yeni bir dövr başlamışdır. Daha çox beynəlxalq səviyyədə davam edən münasibətlərdə Türkiyə öz neytrallığını qorumağa çalışmışdır. Qütbləşən dünyada, xüsusilə 1939-cu ildə Nazi-Sovet Paktından Türkiyə narahat olmuşdur. Nazi-Sovet yaxınlaşmasından sonra türk xarici siyasəti yeni bir mərhələyə qədəm qoymuşdur. Bu tarixdən sonra Türkiyə Qərb dövlətlərinə daha yaxınlaşmış və nəticədə, Sovet İttifaqı ilə münasibətlər gərginləşmişdir.

Rusiya 1939-cu ilin avqustundan etibarən həm Balkan Antantını nəzərə almayaraq Besarabiya üzərindəki iddialarını açıq şəkildə ortaya qoymuş, həm də Polşanın bir hissəsini işğal etmişdir. Bununla yanaşı Rusiya kiçik Baltik dövlətlərinin xarici işlər nazirlərini Moskvaya dəvət etmiş və bu dövlətlərdə Rusiya üçün quru və hava bazalarının qurulmasına icazə verən qarşılıqlı yardım paktları imzalamışdır.

Bununla kifayətlənməyən Rusiya, Türkiyə Xarici İşlər Naziri Şükrü Saraçoğlunu Moskvaya dəvət etmişdir. Rusiya 25 sentyabr 1939-cu ildə Moskvaya gedən Saraçoğlundan Çanaqqala (Boğazlar) üçün birlikdə müdafiə pakti imzalanmasını, Qara dənizdə sahili olmayan dövlətlərin hərbi gəmilərinin boğazlardan keçirilməyəcəyinə dair zəmanət verilməsini tələb etmişdir. Stalin isə bunun qarşılığında Türkiyəyə torpaq təklif etmişdir. Stalin Yunan adalarının Türkiyə sahillərinə yaxın olan hissələrinin Türkiyəyə verilməli olduğunu və 12 adanın ya Türkiyəyə verilməsini, ya da Yunanıstan ilə Türkiyə arasında bölüşdürülməsini müdafiə etmişdir.

1939-cu ildə türk-rus münasibətləri xeyli gərginləşmişdir. Bunun nəticəsində, Londondakı mətbuat Türkiyə və Sovetlərin müharibə ərəfəsində olduğu iddialarını irəli sürmüşdür. Bu iddialara qarşı olaraq, Baş nazir Rəfiq Saydam türk-Sovet münasibətləri ilə bağlı belə açıqlama vermişdir:

“Son günlər dolaşan gizli məqsədli xəbərlərə baxmayaraq, Sovet İttifaqı ilə münasibətlərimizdə heç bir dəyişiklik yoxdur. Biz yalnız şəxsi adımıza zəmanət verə

biləcəyimiz bir dövrdə yaşayırıq. Sovet İttifaqına qarşı müharibə elan etmək niyyətimiz qətiyyən yoxdur. Sovet İttifaqının da Türkiyəyə qarşı təcavüz edəcəyi barədə heç bir sübut yoxdur" [2].

İtaliyanın 1940-cı ilin iyun ayında İngiltərə və Fransaya qarşı müharibəyə qoşulması səbəbindən Aralıq dənizinin təhlükəsizliyi təhdid altında idi. Beləliklə, Türkiyənin müharibə qarşısındakı vəziyyəti də dəyişmişdir. Lakin Türkiyə Sovet İttifaqına qarşı silahlı mübarizəyə sürüklənməmək üçün müharibəyə qatılmamışdır.

Sovet-alman müharibəsinin başlaması ilə türk-Sovet münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. İndiyə qədər Türkiyə Moskvanın müharibə mövqeyini böyük bir narahatlıqla izləyirdisə, bundan sonra Rusiyanın gələcəyə narahatlıqla baxacağı bir dövr başlamışdır. Alman propaqandasına qarşı Rusiya Türkiyəyə xoş niyyət göstərmək istəyini bildirmişdir. İranın işğalına hazırlaşan Sovet Rusiyası neytral siyasət aparan Türkiyəni narahat etməmək üçün 10 avqust 1941-ci ildə Ankaraya İngiltərə ilə birgə nota göndərmişdir:

"Sovet hökuməti Montrö Müqaviləsinə sadiqliyini təsdiqləyir və türk hökumətinə heç bir təcavüz niyyəti olmadığını və Boğazlar üzərində heç bir tələbi olmadığını təmin edir. Sovet və ingilis hökumətləri Türkiyə Respublikasının ərazi bütövlüyünə hörmət etməyə hazırdırlar. Türk hökumətinin müharibəyə sürüklənməmək istəyini tam anlayaraq, rus və ingilis hökumətləri Türkiyə bir Avropa dövləti tərəfindən hücuma məruz qaldığı təqdirdə ona hər cür yardım göstərməyə hazırdırlar" [2].

Bütün bu xoş niyyət göstərmələrinə baxmayaraq, Rusiya müharibədə əldə etdiyi üstünlükdən istifadə edərək, Türkiyəni neytrallıq siyasəti səbəbindən tənqid etmiş və təzyiq göstərməyə çalışmışdır. İkinci Dünya Müharibəsi dövründə həm Rusiya, həm də İngiltərə Türkiyəni müharibəyə qoşulmağa inandırmağa çalışmışdır. Türkiyə müharibənin sonuna qədər neytrallığını qorumağa çalışmış və faktiki olaraq müharibəyə girməmişdir.

Lakin müharibə bitmədən qısa bir müddət əvvəl Türkiyə müttəfiq dövlətlər tərəfinə qoşulmuşdur. Türkiyə faktiki olaraq müharibəyə qoşulmadan qalib dövlətlərlə San-Fransisko Konfransına getməyə hazırlaşmışdır. Beləliklə həm müharibədən sonrakı dünyada rol sahibi olacaq, həm də Birləşmiş Millətlər Təşkilatının qurucu üzvü kimi bu təşkilatda iştirak edəcəkdir.

İkinci Dünya Müharibəsindən sonra Türkiyənin mövqeyi Rusiyanın xoşuna gəlməmiş və Türkiyə əleyhinə propaqandası artırılmışdır. Nəticədə, Rusiya 1925-ci il tarixli Türkiyə-Sovet Dostluq və Təcavüzkarlıqdan Çəkinmə Paktını ləğv etdiyini açıqlamışdır. Türkiyəyə verilən notda belə deyilir:

“Xüsusilə İkinci Dünya Müharibəsi zamanı baş verən əsaslı dəyişikliklər səbəbindən bu müqavilə artıq yeni şərtlərə uyğun gəlmir və ciddi dəyişikliklərə ehtiyac göstərir” [1].

Sovet İttifaqı bununla kifayətlənməyərək Türkiyədən torpaq tələb etmiş, Kars və Ardahanı geri istəmişdir. Sovetlərin torpaq tələblərinə və Boğazlar ilə bağlı istəklərinə qarşı olaraq Türkiyə hökuməti belə cavab vermişdir: “Heç bir müqavilə ilə torpaq və ya baza verilməsi mümkün deyil və Montrö Boğazlar Müqaviləsində də heç bir dəyişiklik edilə bilməz”. Cümhurbaşkanı İsmet İnönü də: “Türkiyənin bir qarış torpağını belə verməyəcəyini, lazım gəlsə şərəfləri ilə öləcəklərini” bəyan etmişdir” [4].

**Nəticə**

1927–1936-cı illər ərzində Türkiyə və Sovet İttifaqı arasındakı münasibətlər əsasən ticarət və iqtisadi əməkdaşlıq üzərində formalaşmışdır. Bu dövrdə imzalanan müqavilələr qarşılıqlı fayda prinsipi ilə iki ölkə arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə xidmət etmişdir. Həmçinin bu müqavilələr Türkiyənin Sovet təsirinə qarşı öz diplomatik mövqeyini qorumasına imkan yaratmışdır.

1939–1945-ci illərdə isə münasibətlər daha çox təhlükəsizlik və siyasi faktorlar çərçivəsində inkişaf etmişdir. Sovetlərin ərazi iddiaları və dünya müharibəsi şəraiti Türkiyədə narahatlıq doğurmuş, nəticədə, ölkə neytral mövqe tutaraq müharibədən kənarda qalmağa çalışmışdır. Hər iki dövr göstərir ki, Türkiyə həm iqtisadi, həm də siyasi sahələrdə balanslı siyasət yürütmüş, öz maraqlarını qorumaqla xarici siyasətində neytrallığını səmərəli şəkildə təmin etmişdir.

**Ədəbiyyat**

1. Ahmet Cavid Bey’in Müntehabâtı, Osmanlı- Rus İlişkileri Tarihi, haz:(Adnan BAYCAR), Yeditepe, İstanbul, 2004, s.170-171.
2. Bilgiç, Erdal. "Sovyetler Birliği-Türkiye 1927 Ticareti: Ekonomik İlişkilerde Bir Mühim Taşmıydı?" ÇTTAD, XXI/42, 2021/Bahar.
3. Savunma, S. "İki Dünya Savaşı Arasında Türk-Sovyet İlişkileri." KHO, 2023.
4. Gürbüz, Kamil. "İkinci Dünya Savaşı'nda Türk-Sovyet İlişkileri." Uludağ Üniversitesi, 2007.
5. Deniz Müzesi Komutanlığı, Çeşme Baskını ve Sonuçları/ 15 may, 2019, 23:00, s.1. https://denizmuzesi.dzkk.tsk.tr/dmk/upload/files/201611/58343ffcde142-1479819260.pdf

# TURKEY-USSR RELATIONS (1923-1946)

**T.A. Aghayev, X.J. Isayeva**
Azerbaijan University, Jeyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** After the collapse of the Ottoman Empire, relations between Turkey and Russia entered a new phase. Following the 1917 revolutions, Soviet Russia ceased to be a threat to Turkey and became one of its main supporters during the War of Independence. Friendly relations continued during Lenin's rule; however, with Stalin's rise to power, a period of stagnation emerged. In 1924, the Soviets gained international recognition, established diplomatic relations with Britain and other European states, and proposed a non-aggression pact to Turkey. This article characterizes and analyzes the political and diplomatic aspects of this period.

**Keywords:** Turkey, Soviet Union, diplomatic relations, 1923–1946, international relations.